# Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət investisiya xərclərinin səmərəliliyinin artırılması, dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 190 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları" yeni redaksiyada verilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydaların 7.2-ci bəndinə uyğun olaraq, Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydaların 2.15-ci, 3.4-cü, 3.16-cı və 5.2-ci bəndlərində qeyd olunan formaları iki ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Qaydalar 2025-ci il aprelin 1-dək tərtib olunmuş investisiya layihələrinə və onların qiymətləndirilməsinə şamil edilmir.

5. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənddə "16.2-ci" sözlərindən sonra ", 17.3-cü (ikinci halda)" sözləri əlavə edilsin;

5.2. 2.4-cü bənddən "17.3-cü (ikinci halda)," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2024-cü il*

*Fərmana edilmiş əlavə ilə*
*www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

Azərbaycan.- 2024.- 21 dekabr (№ 282).- S.2.